

Anar AMİN

## Özgəyə yaxınam, özümə yadam

...Suallar quşların qanadlarında,
Cavablar quşların dimdiyindədi.
Günahlar sünbülün dənlərindəsə,
Savablar quşların dimdiyindədi.

Özgəyə yaxınam, özümə yadam,
Haçansa başıma uçacaq bu dam,
Cəsədi qurd-quşa yem olan adam,
Əzablar quşların dimdiyindədi.

Girsin öz içinə azmaq istəyən,
Gördüyü yuxunu yozmaq istəyən.
Min ildi o şair yazmaq istəyən
Kitablar quşların dimdiyindədi!..

## Sətir-sətir başlar sevgi nağılı...

...O xətir, o hörmət sevgiyə döndü,
Bəs idi hörmətə, xətirə kimi.
Bəlkə heç getməyək burdan o yana,
Qalsın yadımızda xatirə kimi?!

Bax burdan o yana yol yoxdu geri,
Getsək də həsrət var, yeri, ha yeri...
Ürəksiz yazılan sevgi şeiri
Ölürmüş sətirdən-sətirə kimi.

Sətir-sətir başlar sevgi nağılı,
Olmaz sevənlərin, olmaz ağılı.
Sən varlı qızısan, mən kasıb oğlu,
Bu eşq tapa kimi, itirə kimi.

Bəlkə heç getməyək burdan o yana,
Qalsın yadımızda xatirə kimi?!..

## Ovçu gülləsinə tuş gələr quşlar...

Bu payız yağışlar tez yağdı bir az,
Yenə damcı damır damdığı yerdən...
Güc alar köç edib gedən durnanın
Qanadları göydən, dimdiyi yerdən...

Durnalar köç edir, yağır yağışlar,
Yağışlar çöllərə nələr bağışlar...
Ovçu gülləsinə tuş gələr quşlar,
Tuş gələr, gözünü yumduğu yerdən...

...Gərək göz yummayım, ümid kəsməyim,
Payızda üşüyüb, qışda əsməyim,
İlahi, mən səndən necə küsməyim -
Könlümüz küsürsə umduğu yerdən.

## Belə peşman olub dönəcəkdinsə...

Toyuna gələnlər elə bildilər,
Sən vüsala yetdin, mən ayrılığa.
İş-işdən keçmişdi, gec başa düşdük,
Bir görüş dəyərmiş min ayrılığa.

Gec başa düşmüşük, o sənə yarsa,
Dünyanın içində dünyamız darsa,
Bizə olan olub, nə dərdin varsa,
Danış ayrılığa, din ayrılığa.

Susub gəlin köçdün, dinəcəkdinsə,
Gərək heç yanmazdın sönəcəkdinsə,
Belə peşman olub dönəcəkdinsə
Niyə tələsirdin sən ayrılığa?

Peşmanıq, vaxt bizi oda qoyacaq,
Ürəkdə sağalmaz zədə qoyacaq,
Sonda başdaşıtək nida qoyacaq,
Ömür ayrılığa, gün ayrılığa.

Belə peşman olub dönəcəkdinsə
Niyə tələsirdin sən ayrılığa?

## Kor balıqçı

...Onnan balıq tutan bu kor balıqçı
Necə qurduracaq toru bu gecə?
Sən çıxıb gedirsən, mən də gedirəm,
Kim yola salacaq koru bu gecə?

Görünmür balıqlar, görünə, bəlkə,
Bəlkə çəkiliblər dərinə, bəlkə,
Ümidnən yaşayır toruna, bəlkə,
Düşə gözlərinin nuru bu gecə...

Hər şeyi görəndi, biləndi Xalıq,
Kimin qismətidi qalan bu qalıq?
Gözlərində işıq, əlində balıq
Gedər evlərinə sarı bu gecə...

Verdiyin işıqdan yarıya bilər,
Yarıyıb, qocalıb qarıya bilər,
Sabah öz-özünü qoruya bilər,
İlahi, sən onu qoru bu gecə!..

